# Musiqiçi şagirdlər üçün fortepiano vəsaiti




**Bu günlərdə Milli Kitabxanada elm və incəsənət xadimlərinin iştirakı ilə yeni nəşr olunmuş "İncəsənət məktəbləri üçün fortepiano ixtisası üzrə dərs vəsaiti" musiqi ictimaiyyətinə təqdim edildi.**

Mövcud dərs vəsaitləri ilə müqayisədə yeni nəşr yenilikləri ilə seçilir. Bölmələrdə nəzəri hissənin geniş yer tutması şagirdlərin musiqi sənəti və musiqiçilər haqqında, fortepiano alətinin tarixi, not xətti, açarlar, not işarələri, ritm qabiliyyətinin yoxlanılması və inkişafı kimi vacib məsələlərin daha əhatəli öyrənmələrinə imkan verir. Şagirdlərlə yanaşı, müəllimlər üçün də dəyərli olan bu mənbədən QR kod vasitəsilə Azərbaycan və dünya pianoçularının tanınmış simaları haqqında məlumat almaq mümkündür.

Bəstəkarlardan Elnara Dadaşova və Ceyhun Allahverdiyev, şairlərdən Sevinc Nuruqızı və Zahid Xəlilin sözlərinə 7 notun hər birinə aid yeni mahnılar yazıblar. Şagirdlər həmin mahnıları çalıb-oxumaqla notları daha yaxşı mənimsəyəcəklər.

Dərs vəsaitinin "Müntəxabat" hissəsinə dahi Üzeyir Hacıbəylidən başlamış Fikrət Əmirov, Qara Qarayev, Asəf Zeynallı, Qənbər Hüseynli və müasir bəstəkarların əsərləri də daxil edilib.

Yeni dərs vəsaitinin belə mükəmməl hazırlanmasında, təbii ki, peşəkar mütəxəssislərin böyük əməyi var. Müəlliflər sırasına layihənin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Könül Hüseynova, uzun illərin təcrübəli müəllimi Aygün İsgəndərova və bu məqalənin müəllifi daxildir. Vəsaitin elmi redaktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aytən Babayeva, metodistlər professor Könül Hüseynova, Əməkdar mədəniyyət işçisi, R.Hacıyev adına 15 nömrəli Onbirillik Musiqi məktəbinin müəllimi Tamilla Məmmədova, R.Behbudov adına 2 nömrəli Onbirillik Musiqi Məktəbinin müəllimi Aygün İsgəndərova, C.Qaryağdıoğlu adına 9 nömrəli Uşaq Musiqi Məktəbinin müəllimi Aygün Hüseynova, 34 nömrəli Uşaq Musiqi Məktəbinin müəllimi Aygün Ələkbərova, Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin müəllimi Gülçin Aslanovadır. Vəsaitin kompüter not yığımı sənətşünaslıq üzrə fəlsəfə doktoru Yavər Neymətli və gənc bəstəkar Elvin Quliyev tərəfindən işlənilib. Əlbəttə, bu vəsaitin şagirdlər üçün daha maraqlı olması, layihənin rəssamı Məryəm Axundovanın fırçasından çıxan əlvan rənglərlə bağlıdır.

Təqdim olunan dərs vəsaiti Mədəniyyət üzrə Elmi-Metodik və İxtisasartırma Mərkəzində geniş müzakirə edilmiş, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vüqar Hümbətov və Ruslan Ələkbərov layihənin koordinatoru kimi nəşrin hazırlanmasına köməklərini əsi
gəməmişlər.

Ü.Hacıbəyli adına Bakı Musiqi Ak
demiyasının rektoru, Xalq artisti, profe
sor Fərhad Bədəlbəyli başda olmaql
professorlar – pedaqoji elmlər namizə
Nərminə Quliyeva, sənətşünaslıq üz
fəlsəfə doktoru Nəzakət Rimazi, Əmə
dar artist, sənətşünaslıq üzrə fəlsəfə do
toru Samirə Aşumova və Köln Musi
Akademiyasının dosenti, beynəlxa
müsabiqələr laureatı Toğrul Hüseynlin
rəyləri də dərs vəsaitinin mükəmməl o
masına xidmət etmişdir.

Uzun illərdən sonra belə bir dərs v
saitinin hazırlanması Mədəniyyət Nazi
liyinin musiqi mədəniyyətimizə dəyə
töhfəsidir. Ümidvarıq ki, yeni nəşr b
laca pianoçuların böyük uğurlarına ya
dımçı olacaq.

***Səadət TƏHMİRAZQIZ***
*sənətşünaslıq üzrə fəlsəfə doktor*
*Əməkdar mədəniyyət işçi*

Xalq qəzeti .- 2026.- 25 fevral (№36).- S.12.